UOT 398
https://doi.org/10.59849/2311-8482.2025.3.68

TƏRANƏ ABDULLAYEVA*

# AZƏRBAYCANIN ŞİMAL-QƏRB BÖLGƏSİN ARXAİK FOLKLOR JANRLARINDA MİFOLOJİ TƏSƏVVÜRLƏRİN TƏZAHÜRÜ

*Məqalədə Azərbaycanın Şimal-qərb bölgəsinə məxsus arxaik folklor janrları mifoloji aspektdən tədqiq olunmuş, müxtəlif nümunələr nəzərdən keçirilmişdir. Əvvəlcə, bölgəsinin folklor mühiti, tarixi-regional özünəməxsusluqları, folklorun yaranmasında, yayılmasında və mühafizəsində tarixi-etnoqrafik və coğrafi özəlliklər qısa şəkildə vurğulanmış, daha sonra həmin mühitdə, yaranıb-formalaşan arxaik folklor nümunələri araşdırılmışdır. Bu zaman əraziyə məxsus bəzi arxaik folklor örnəkləri tədqiqata cəlb olunmaqla həmin nümunələrin işlənmə formaları, onlarda öz əksini tapan mifik görüşlərin təsnifatı verilmiş, funksiyaları, obrazlar sistemi, xalq yaddaşındakı yeri müəyyənləşdirilmişdir. Mövcud araşdırma bölgəyə aid folklor materiallarının toplanması, təhlili və mifoloji kontekstdə şərh olunması əsasında qurulmuşdur.*

***Açar sözlər:*** *şimal-qərb bölgəsi, folklor, mif, arxaik janr, inanc*

**Giriş.**

Azərbaycan folkloru mifoloji məzmununun genişliyi, rəngarəngliyi, xalqın qədim təfəkkürünün və dünyagörüşünün, dini-inanc sisteminin ifadəsi baxımından olduqca zəngindir. Bu aspektdən, ümumazərbaycan folklorunun bir parçası olan və Şəki, Qax, Zaqatala, Balakən, Qəbələ rayonlarını əhatə edən Şimal-qərb regionun folkloru da mifik obrazlar sisteminin genişliyi, arxaikliyi və orijinallığı ilə seçilir. Sözügedən cəhət, bölgənin mədəni mühiti, təbii-coğrafi şəraiti, etnik tərkibi və tarixi inkişaf dinamikası ilə birbaşa bağlı olub, ərazidə formalaşmış folklor nümunələrinin özünəməxsus mifoloji çalarlar qazanmasına səbəb olmuşdur.

Arxaik janrlar xalqın qədim təfəkkür qaynaqlarını yaşatmaqla xüsusi elmi əhəmiyyət daşıyır.Bu baxımdan arxaik janrların öyrənilməsi, əsasən də mifoloji yöndən tədqiqi ədəbiyyatşünaslıq və folklor şünaslıq üçün baza rolunu oynayır.

Mifik görüşlər dedikdə isə bəşəriyyətə məxsus təfəkkürün ilkin mərhələlərini əks etdirən mənəvi dəyərlər sistemi nəzərdə tutulur. Onlar insanın təbiət hadisələrini, həyatın mənşəyini və kainatın nizamını izah etmək cəhdlərinin məhsulu olmaqla, zamanla dini-fəlsəfi inanclara, ayinlərə və gündəlik həyata sirayət etmişdir.

Arxaik folklor janrları folklorşünaslıqda ibtidai dövrlərdən gələn, ilkin inanclar və mifik görüşləri, ənənələri özündə qoruyub-saxlayanən qədim janrlardır. Bu janrlara əsas etibarilə sınamalar, ovsunlar, fallar, andlar, dualar, alqış-qarğışlar daxildir.

**Mövzunun aktuallığı** ondan ibarətdir ki, arxaik folklor janrlarının mifoloji yöndən araşdırılması Azərbaycan folklorunun ilkin qaynaqlarının öyrənilməsi, ərazidə yaşan əhalinin qədim inanclarının mifik baxışlarının araşdırılması və tədqiqi üçün mənbə rolunu oynayır.

**Tədqiqatın məqsədi** Azərbaycanın Şimal-qərb bölgəsinin arxaik folklor janrlarında mövcud olan mifoloji təsəvvürlərin təzahürlərini araşdırmaq və ayrı-ayrı folklor mətnlərində təcəssüm formalarını aşkara çıxarmaqdır.

**Əsas məzmun**.

Azərbaycanın Şimal-qərb bölgəsi zəngin təbii coğrafiyası və çoxşaxəli etnomədəni tərkibi ilə seçilir ki, bu da ərazidə hələ ən qədim dövrlərdən yaranan folklorun formalaşması və yaşaması üçün əlverişli şərait yaratmışdır. Bu ərazi əsas etibarilə Şəki, Qax, Zaqatala, Balakən və Qəbələ rayonlarını əhatə edir. Həmin ərazilərdə həm qədim türk tayfaları, həm də bir çox başqa etnik

qruplar yaşamışdır. Adıgedən ərazidə mövcud olan müxtəlif etnosların minillərlə davam edən qarşılıqlı təsirləri özünəməxsus folklor mənzərəsi yaradır. Bölgədən toplanmış folklor materiallarının tədqiqi zamanı hələ də mətnlərdə qorunub saxlanan arxaik mifoloji konstruksiyaların saxlanılması, xüsusilə təbiət kultu, əcdadlara inam, qoruyucu ruhlar və mərasimlərə məxsus ritualların canlı formada yaşaması müşahidə olunur.

Şimal-qərb bölgəsinin dağlıq relyefi, sıx meşəlikləri, axar çayları və münbit şəraiti burada yaşayan icmaların təbiətlə bağlı həyat tərzini formalaşdırmışdır. Bu təbii-coğrafi arealda yaranan folklor nümunələrində təbiət hadisələri və obyektləri ilə bağlı mifoloji təsəvvürlər üstünlük təşkil edir. Bölgənin xalq yaddaşında qorunub saxlanılan sənət nümunələrində təbiət hadisələri və obyektləri ilə bağlı təsəvvürlər üstünlük təşkil edir. ("Meşə anası", "Yaşıl göyçək") Nümunələrdə dağların, meşələrin, ayrı-ayrı ağacların müqəddəsliyi, bulaqların şəfa mənbəyi olması aydın şəkildə əksini tapır.

Bölgənin folklor materiallarının sistemli şəkildə toplanması əsasən XX əsrin ikinci yarısından başlayaraq Folklor İnstitutu və regional ekspedisiya qruplarının fəaliyyəti nəticəsində, həmçinin AMEA-nın Şəki Zona Elmi Bazasında 1989-cu ildə yaradılmış "Folklor tədqiqat qrupu" tərəfindən həyata keçirilmişdir. Hazırda bu proses Şəki Regional Elmi Mərkəzinin "Ədəbi-mədəni mühit və folklor" şöbəsi tərəfindən aparılır ki, məqalənin qələmə alınması zamanı yazılı mənbələrlə yanaşı, Şöbədə toplanan materiallar əsas tədqiqat obyekti kimi götürülmüşdür.

Şimal-qərb regionunun arxaik folklor irsi bədii təxəyyülün örnəyi kimi qiymətli olmaqla yanaşı, həm də ərazidə yaşayan insanların qədim inanclarının, dini təsəvvürlərinin daşıyıcısı, arxaik inam sisteminin təzahürü kimi əhəmiyyətli yer tutur. Azərbaycanın Şimal-qərb bölgəsində xalq yaradıcılığı çox qədim qatlara gedib çıxır və bu yaradıcılıq formasında arxaik folklor janrları xüsusi yer tutur. Bu janrların hər biri xalqın dünya görüşünü, kainatla münasibətini və kosmik hadisələrə münasibətini formalaşdıran əsas mənbədir. Onlar xalqın yaddaşında həm estetik, həm də fəlsəfi bir qat kimi qorunmuşdur. Arxaik folklor janrları dedikdə əsasən sınamalar, ovsunlar, andlar, dualar, alqış-qarğışlar nəzərdə tutulur. Tədqiqat zamanı bu janrları və onlarda əksini tapan mifik görüşlər təhlil edilməyə çalışılır.

**Sınamalar**. "Arxaik folklor janrları işərisində xüsusi yer tutan janr sınamalardır ki, ibtidai insanların təbiət hadisələrinə təsir etmək, bununla da təbiətə qarşı uğur qazanmaq, xəta-bəladan, xəstəlik, ölüm kimi hallardan uzaq olmaq cəhdləri sınamaların yaranmasına gətirib çıxarmışdır. Belə nümunələr ibtidai təxəyyüllə bağlı olduğu üçün onların məzmununda mifik elementlər kontekst kimi çıxış edir".[1,s.67] Bundan qaynaqlanaraq deyə bilərik ki, Azərbaycanın Şimal-qərb bölgəsinə məxsus nümunələrdə canlılara məxsus saç, dırnaq kimi elementlərlə bağlı çoxlu sayda sınama, inanclar vardır. Məsələn, Saçında vaxtından erkən ağ tük olana xöşbəxtlik üz verər; Saçı tapdamazlar; Uşağın dırnağını xüsusi günlərdə kəsmək lazımdır; Saçı, dırnağı şər qarışanda kəsməzlər və s. Bütün bunlar sınamalarda və inanclarda yer alan mifik təsəvvürlərin izləridir. Şamanizmdə, qədim dünya ədəbiyyatına aid əfsanə və rəvayətlərdə də bunların izlərini görmək mümkündür.

Bundan başqa bölgədən toplanan sınama nümunələrində bir çox mifik görüşlərə, kultlara inamın izlərini görmək mümkündür. Adna günü baş yumax olmaz, bedbaxçılıq olar; Ağac bar gətirməyəndə onun ortasından misdən mismar vurarlar, ya da qurban qanı sürtərlər; Ay işığında ot biçməzlər; Şər qarışanda ev süpürməzlər, bədbəxtlik gətirər.[7] və s. bölgədən toplanan belə nümunələrdə həm ayrı-ayrı əşyaların, həm də təbiət, kosmik varlıqların mifik gücünə inam açıq görünür.

**Ovsunlar.** Arxaik folklor janrları içərisində xüsusi yer tutan janrlardan biri də ovsunlardır. Ovsunlar digər janrlara nisbətən kütləvilikdən uzaqdır, digər dolklor janrlarına nisbətən daha az

yayılmışdır. Bu nümunələrdə magik təsəvvürlər daha güclüdür. Maraqlıdır ki, belə nümunələrdə xüsusi qısa, lakonik nəğmələrin oxunması, ayinlərin icrası geniş şəkildə özünü göstərir. Məsələn, Şəkidə icra edilən belə bir ovsun nümunə gətirə bilərik.

*İtiyi olan şəxs stəkanı qaranlıq və gizli bir yerdə ağzı aşağı qapadır və deyir: Şeytan, sənin balanı tutmuşam. Mənim itiyimi (burada əşyanın adı çəkilir) tapmasan sənin balanı öldürəcəm.* Gördüyümüz kimi bu nümunədə mifik görüşlər də öz əksini tapır. Şeytandan kömək gözlənilir. Və ya Zaqatalaya məxsus belə bir nümunəni nəzərdən keçirək.

*Qara göz, ağ göz,*
*Şər göz, pis göz,*
*Gözün ocağa düşsün,*
*Ocağın külü başına,*
*Uşaq gözdən qurtarsın.*[7]

**Fallar.** Əfsuna yaxın janrlardan biri də fallar sayılır. Fərq ondadır ki, əfsunçular sözlə, onun magik qüvvəsi ilə təsir göstərirlər, falçılar isə rəqəmlə, işarə və xətlərin, şəkillərin köməyi ilə obyektə müxtəlif cür şərh verirlər. [6, s.119] Bu nümunələrin qədim xalq məişətində çox güclü yeri olmuşdur. Çimal-qərb bölgəsində də geniş şəkildə işlənən fallar müasir dövrdə də öz aktuallığını müəyyən qədər bölgədə saxlamaqdadır. Müasir dövr də əsasən Novruz bayramında fala baxma mərasimi keçirilir. Qulaq falı, su falı, üzük falı bu cür maraqlı nümunələrdəndir. Fallarda fetişizmin izləri vardır ki, bu müxtəlif əşyaların fövqəltəbiiliyinə inamın izləridir. Məsələn, bölgədə, əsasən də *Şəkidə Novruz bayramlarında, axır çərşənbədə icra olunanüzük falı. İpə taxılmış üzüyün hərəkətinə baxılır.Əgər üzük hərəkət edərsə qız evlənəcək, hərəkətsiz qalarsa hələ qismət yoxdur.* Və ya başqa variantda: *Bir kasa su götürülür. Nişanlı qızın üzüyünü alaraq ipə keçirib həmin suyun üzərində hərlədirlər. Və saymağa başlanılır. Neçə rəqəmində üzük hərəkətini saxlasa həmin qız o yaşda ərə gedəcək.*

Falların mifik yönü taleyə inam, təbiət kultları ilə bağlılıq, su falı, od, ocaq falı, ayna falı. Bunlarda təbiət kultlarına inam öz əksini tapır. Kosmik dualizmin izləri də fallarda mifoloji görüşlərin göstəricisidir. Yaxşı-pis, uğurlu-uğursuz, işıqlı-qaranlıq kimi dualist təsəvvürlər fallarda geniş yer tutur ki, Şəkidə geniş yayılan ümumən Şimal-qərb və ümumazərbaycan folklorunda da yer alan Novruzda qulaq falına çıxma zamanı İlk eşidilən "xoş söz" "uğurlu gələcəyin" göstəricisi, "pis söz" isə "uğursuz taledən" xəbər verir.

**Andlar, dualar.** Şimal qərb bölgəsində şox geniş aspektdə yayılan arxaik folklor janrlarından biri də andlar və dualardır. Bölgəyə məxsus olan andlarda əsasən təbiət kultlarına inam və bağlılıq özünü göstərir. Məsələn, Çərşənbə baba haqqı; Od haqqı; Ocağa and olsun; Yel bava haqqı; Unurvat haqqı; Sarı pir haqqı; [2,s.12]

**Dualar.**Bu arxaik folklor nümunələri özlüyündə 2 qismə bölünür. Xeyir-dualar və bəddualar. Xeyir-dualar insanlara uğur, bərəkət, sağlamlıq və uzun ömür arzulamaq məqsədilə deyilir. Sözün magik gücünə inam dualarda mifoloji qatı müəyyənləşdiri. İşığa, ocağa torpağa inamın izləri duyulur. Məsələn, Evin nurlu olsun; Ocağın gur yansın; Əppəyin bol olsun; Ağrın, acın maa gəlsin; Ağ günnü, ağ əppəhli olasan və s. [3, s.258] Başqa bir nümunədə Xıdır İlyas mifoloji obrazına rast gəlinir ki, burada dua edilir, Xıdır İlyasdan yardım istənir. Məsələn, *Ya, Xıdır İlyas, mana kömeyh eyle sağ salamat keçim.* Ərazidə yayılmış inama görə bu ifadə dağlardan, qayalardan keçərçən dua kimi işlənir[4,s.81]

**Bəddualar.**Kiməsə pislik, pis gün arzulamaq üçün edilən dualardır. Ocağı sönsün; Yurdu viran qalsın kimi; Ağzına qara qadaz vurulsun; Allah hava alsın; Ayıo örtsün; [3, s.260] nümunələrdə də biz arxaik inancların izlərini görə bilirik.

**Alqış və qarğışlar.** Bu nümunələr bəzən dua və bəddualarla eyniləşdirilsə də incə məna fərqləri onları fərqləndirir. Belə ki, alqışlarda birbaşa sosial münasibətlərdə əsasən öz ifadəsini tapır. Məsələn, toyda, yolçuluqda, təsərrüfatda birbaşa insana yönəlir. Dua isə daha çox tanrıya yönələrək xoş gün arzulanır. Alqışlar xalq dilində, şşifahi, qısa lakonik söylənilir. Evin abad olsun; Xeyrə calanasan; və s.[2, s.23]

**Qarğışlar.**Xaosu, şəri çağırır, ölüm, pislik arzulanır. Bəzən cin, şeytan, xəstəlik, qara qüvvələr çağrılır. Məsələn Canına ölüm olsun və ya Ölüm olsun canına; Burada “ölüm” mifik obraz kimi işlənir, əzrayılı əvəz edir.[4, s.77]

**Nəticə**

Tədqiqatdan belə nəticəyə gəlirik ki, Azərbaycanın Şimal-qərb bölgəsində qorunub saxlanmış arxaik folklor janrları – inanclar, sınamalar, dualar, ovsunlar, andlar, alqış və qarğış nümunələri yerli əhalinin qədim magik təsəvvürlərini, mifoloji görüşlərini özündə qoruyub saxlayır ki, bunlar arasında həm ümumdünya, həm ümumtürk təsəvvürləri ilə bir çox paralellər və oxşarlıqlar üstünlük təşkil edir. Belə ki, folklor materiallarında müşahidə olunan “Meşə anası”, “Umay ana”, “Qara kişi” kimi obrazlar, “kosmik ağac”, “müqəddəs bulaq”, “niyyət ağacı” kimi simvollar, habelə mərasim və inamlar bütövlükdə türk mifoloji sisteminə bağlı arxetiplərin regional təzahürüdür. Bununla yanaşı bölgədə təbiətlə bağlı, bölgəyə xas bitki, heyvan növlərinə etiqad nümunələrin orjinallığını və regiona məxsus olduğunu göstərir. Bu janrlar vasitəsilə bölgəyə xas mifik obrazlar, simvolik təbiət obyektləri və qoruyucu varlıqlar yaddaşlarda yaşadılmış, nəsildən-nəslə ötürülərək mədəni irsin ayrılmaz tərkib hissəsinə çevrilmişdir.

## ƏDƏBİYYAT

1. Azərbaycan ədəbiyyatı tarixi. Altı cilddə. I cild (Şifahi xalq ədəbiyyatı), Bakı:Elm, 2024. 760s.
2. Azərbaycan folkloru antologiyası. XIII kitab (Şəki, Qəbələ, Oğuz,Qax, Zaqatala, Balakən folkloru), Bakı:Səda, 2005. 546 səh.
3. Azərbaycan folkloru antologiyası. VI kitab (Şəki folkloru-IIcild), Bakı:Səda, 2002.
4. L. Süleymanova. Şəki folklor mühiti, Bakı, 2012. – 248 səh.
5. L. Süleymanova Şəki folklor örnəkləri, 1-ci kitab. Bakı, "Nurlan"nəşriyyatı, 2014, 414 səh.
**6.** Ramil ƏLİYEV. Azərbaycan şifahi xalq ədəbiyyatı (Müasir aktual problemlər). Bakı, Lider. 2012. – 167 s**.**
7. AMEA Şəki Regional Elmi Mərkəzin Ədəbi-mədəni mühit və folklor şöbəsinin şəxsi arxiv materialları, toplamalar.
8. Şəki folklor örnəkləri. II kitab. Bakı, "Elm və təhsil", 2014, 408 səh.

***AMEA Şəki Regional Elmi Mərkəzi***
***Ədəbi-mədəni mühit, folklor və etnoqrafiya şöbəsi***
***E-mail:terane873@gmail.com***

**Tarana Abdullayeva**

## THE MANFESTATION OF MYTHOLOGICALIMAGES IN ARCHAIC FOLKLORE GENRES OF THE NORTHWESTERN REGION OF AZERBAIJAN

The article studies archaic folklore genres of the North-West region of Azerbaijan from a mythological aspect, and considers various examples. First, the folklore environment of the region, its historical-regional peculiarities, historical-ethnographic and geographical features in the

creation, dissemination and preservation of folklore are briefly emphasized, then archaic folklore examples that emerged and formed in that environment are examined. At this time, some archaic folklore examples of the region are involved in the study, and the forms of development of those examples, the classification of mythical views reflected in them are given, and the functions, image system, and place in the people's memory are determined. The current study is based on the collection, analysis and interpretation of folklore materials of the region in a mythological context.

**Keywords:** *north-western region, folklore, myth, archaic genre, belief*

**Тарана Абдуллаева**

**ПРОЯВЛЕНИЕ МИФОЛОГИЧЕСКИХ ОБРАЗОВ В АРХАИЧНЫХ ФОЛЬКЛОРНЫХ ЖАНРАХ СЕВЕРО-ЗАПАДНОГО РЕГИОНА АЗЕРБАЙДЖАНА**

В статье исследуются архаичные фольклорные жанры северо-западного региона Азербайджана с мифологического аспекта и рассматриваются различные примеры. Сначала кратко освещается фольклорная среда региона, ее историко-региональные особенности, историко-этнографические и географические особенности в создании, распространении и сохранении фольклора, затем рассматриваются архаичные фольклорные образцы, возникшие и сформировавшиеся в этой среде. При этом в исследование вовлекаются некоторые архаичные фольклорные образцы региона, и даются формы развития этих образцов, классификация отраженных в них мифических представлений, определяются функции, образная система и место в памяти народа. Настоящее исследование основано на сборе, анализе и интерпретации фольклорных материалов региона в мифологическом контексте.

**Ключевые слова:** *северо-западный регион, фольклор, миф, архаичный жанр, веровани*

*Akademik Muxtar İmanov tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 17.06.2025**
**Son daxilolma tarixi:08.07.2025**